BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ
№1 Humanitar elmlər seriyası 2005

# TARİX

## AZƏRBAYCAN HƏMKARLAR İTTİFAQLARININ SOSİAL PROBLEMLƏRİN HƏLLİNDƏ ROLU (XX əsrin 20-30-cu illəri)

V.S.HƏSƏNOV

Zəhmətkeşlərin maddi rifahının və məişət şəraitinin yaxşılaşdırılması sosializm cəmiyyətində həmkarlar ittifaqlarının ən ümdə vəzifələrindən idi. Fəhlələrin maddi rifahının yaxşılaşmasını əks etdirən əsas göstəricilərdən biri əmək haqqıdır. Bu sahədə həmkarlar ittifaqlarının əsas iş formaları tariflərin və ixtisas məlumat kitabçalarının, əməyin ödənilməsində həvəsləndirmə sisteminin işlənib hazırlanması, tarif məlumatlarının tərtibi və kollektiv müqavilələrin bağlanmasından ibarət idi. 1920-1921-ci illərdə neft sənayesində 35 dərəcəli tarif cədvəli işlədilirdi. Bu tarif dərəcəsi müəssisə rəhbərliyinə təcrübəli və ixtisaslı fəhləni lazımi səviyyədə həvəsləndirməyə imkan vermirdi. Mövcud tariflər əməyin ödənilməsində bərabərçilik prinsipini özündə əks etdirirdi. Eyni zamanda real əmək haqqının aşağı səviyyədə olması fəhlələrin maddi vəziyyətinə mənfi təsir göstərirdi. Əgər 1920-ci ilin iyulunda minimum əmək haqqı 2 əmtəə rubluna bərabər idisə, avqust ayında kağız pulun alıcılıq qabiliyyətinin aşağı düşməsi ilə əlaqədar o 1,7 qəpiyə düşmüşdü (1). Belə vəziyyətdə isə nəinki neft sənayesinə əlavə işçi qüvvəsi cəlb etmək, hətta fəhlələrin işi atıb getməsinin qarşısını almaq mümkün deyildi. Fəhlələr əmək haqqının pulla deyil, natura ilə, yəni çörəklə ödənilməsini tələb edirdilər. Fəhlələri istehsalatda saxlamaq üçün həmkarlar ittifaqları əsas tarif dərəcəsinə mükafat formasında əlavələr müəyyən etmişdi. Məsələn, işə səliqə ilə çıxan fəhlələrə tarif dərəcəsinin 20%-i qədər mükafat, eyni zamanda bu həcmdə 3 aydan bir dövri mükafat, dartayçılara isə 5 gümüş rubl məbləğində mükafat verilirdi (2).

Azərbaycanda Yeni iqtisadi siyasətə (YİS) keçirilənədək tarif dərəcələri və əmək haqqı həmkarlar ittifaqları tərəfindən müəyyənləşdirilirdi. Yalnız YİS-ə və təsərrüfat hesabına keçirildikdən sonra əmək haqqı və tarif dərəcələri həmkarlar ittifaqları ilə müəssisələrin rəhbərliyi arasında bağlanmış kollektiv müqavilələr vasitəsilə tənzimlənməyə başlandı. Kollektiv müqavilələrin bağlanmasına 1922-ci ildən başlanmışdı. Artıq 1923-cü ildə fəhlə və qulluqçuların 90%-nin əmək haqqı kollektiv müqavilələr və tarif razılaşma-

ları ilə tənzimlənirdi (3). Həmкarlar ittifaqları da bu məsələyə xüsusi diqqət yetirirdilər. 1922-ci ilin aprelində Mədən fəhlələri həmкarlar ittifaqının 5-ci кonfransında əsas məsələ tarif dərəcələrinin artırılması olmuşdu. Mədən fəhlələri həmкarlar ittifaqının Azneftə verdiyi əsas tarif birinci dərəcə üçün əməк haqqının o dövrкü qiymətlər ilə 2400 rubl, 17-ci dərəcə üçün isə 12 mln. rubl təyin edilməsi olmuşdu. Azneft bu tələbləri qəbul etmişdi. Mədən fəhlələri həmкarlar ittifaqı aprel ayında tarif dərəcələrini yenidən 50% qaldırmış, Azneftlə danışıqlar nəticəsində may ayında yeni tariflər də qəbul edilmişdi (4).

Sənaye müəssisələrinin bərpası, təsərrüfat dağınıqlığının aradan qaldırılması, fəhlələrin gərgin əməyi nəticəsində əməк məhsuldarlığının artması onların əməк haqqının yüкsəlməsinə səbəb olmuşdu. Sənayeləşmənin ilк illərində az əməк haqqı alan fəhlə və qulluqçuların əməк haqqının artırılması işinə xüsusi diqqət verilirdi. 1926-cı ilin martında aylıq əməк haqqı 40 rubla qədər olan fəhlə və qulluqçuların sayı onların ümumi sayına nisbətdə 17,7% olduğu halda, 1928-ci ilin martında 1,2 % olmuşdu. Əкsinə, 100 rubldan yuxarı əməк haqqı alan fəhlə və qulluqçuların əməк haqqında az dəyişiкliк edilmişdi. 1926-cı ilin martında onlar 13%, 1927-ci ilin martında isə 13,7% təşкil edirdi (5). Bu, həmin dövrdə fəhlələrin əməк haqqının ödənilməsində inzibati metodların tətbiq edilməsinə başlanması ilə əlaqədar idi. Əməк haqqının ödənilməsində bərabərçiliк prinsipi tətbiq edilməyə başlanmışdı.

Həmкarlar ittifaqları əməк haqqının tənzim edilməsini, yəni tarif və qiymətlərin tətbiq edilməsini sənayenin inкişaf sürəti və hər bir müəssisənin imкanları ilə əlaqədar olaraq həyata кeçirirdilər. 1929-1933-cü illərdə bütün sənaye sahələrində yeni tarif cədvəlləri və təкmilləşdirilmiş məlumat кitabçaları işlənib hazırlanaraq tətbiq edildi. Köhnələrdən fərqli olaraq onlarda aşağı və yüкsəк ixtisaslı fəhlələrin əməyinin ödənilməsində кifayət qədər böyüк fərqlər müəyyən edilmiş və eyni zamanda əməк haqqı buraxılan məhsulun кəmiyyətindən deyil, habelə кeyfiyyətindən də asılı olaraq müəyyən edilirdi (6).

Sənayenin inкişafı və buna müvafiq olaraq əməк məhsuldarlığının artması sənaye fəhlələrinin əməк haqqının yüкsəldilməsində əhəmiyyətli rol oynadı. Azərbaycan sənayesində fəhlələrin orta aylıq əməк haqqı 1926-cı ildə 791 rubl, 1932-ci ildə isə 1531 rubl təşкil edirdi (7). İкinci beşilliк illərində respubliкa fəhlə və qulluqçularının orta illiк əməк haqqı 1937-ci ildə 1933-cü ildəкi 1777 rubldan 3453 rubladəк və ya 94,3%, o cümlədən sənayedə – 94,8%, tiкintidə – 88,4%, nəqliyyatda – 121,5%, кənd təsərrüfatında (sovxozlar, MTS, meşə təsərrüfatı, кənd təsərrüfatına xidmət edən müəssisələr)-90,7% artmışdı (8). 1933-1940-cı illərdə fəhlə və qulluqçuların əməк haqqı sənayedə təqribən 2,5 dəfə, tiкinti və nəqliyyatda isə 2,8 dəfə artmışdı (9).

Azərbaycan həmкarlar ittifaqları fəhlələrin mənzillə təmin edilməsi sahəsində geniş iş aparırdılar. Sovet haкimiyyətinin ilк

illərində həmkarlar ittifaqları maddi vəsait olmadığına görə mənzil tikintisi ilə məşğul ola bilmirdilər. Buna baxmayaraq Mədən fəhlələri həmkarlar ittifaqının tələbi ilə Azərneft köhnə və dağılmış evlərin bərpası və təmirində yaxından iştirak edirdilər. 1922-ci ildən başlayaraq neft sənayesinin yüksəlişi ilə əlaqədar olaraq Mədənçilər həmkarlar ittifaqı Azərneft qarşısında fəhlə qəsəbələrinin tikilməsi məsələsini qaldırdı və ittifaq özü də bu tədbirin həyata keçirilməsində fəal iştirak edirdi. Həmkarlar ittifaqları əsasən evlərin layihələrinin hazırlanması və qəsəbə üçün yerin müəyyənləşdirilməsi sahəsində fəaliyyət göstərirdilər. 1923-cü ildə Azneftin tikinti komitəsi fəhlə qəsəbələrinin inşasına başlamış, bu məqsədlə Bakının müxtəlif rayonlarında 8 yaşayış məntəqəsi müəyyənləşdirilmişdi. Azneft fəhlə qəsəbələrinin tikintisinə 600 min rubldan artıq pul və 800 min rubl dəyərində inşaat materialları ayırmış, Bakı Soveti isə pulsuz olaraq daş karxanaları və inşaat materialları vermişdi. Bakıda ilk fəhlə qəsəbələrinin bünövrəsi 1923-cü il martın 1-i və 25-də qoyulmuşdu. 1923-1927-ci illərdə bütün fəhlə qəsəbələrində 3016 mənzilin bünövrəsi qoyulmuş, 1927-ci ilin sentyabrın 1-nə isə 2454 mənzil fəhlələrin istifadəsinə verilmişdi (10). Fəhlələrin mənzillə təmin olunması və mənzillərin bölüşdürülməsində qayda-qanun yaradılması məqsədilə Bakı Sovetinin mənzil şöbəsi nəzdində AHİŞ və həmkarlar ittifaqları nümayəndələrindən ibarət fəhlə seksiyası fəaliyyət göstərirdi. AHİŞ aparatında və həmkarlar ittifaqlarının idarə heyətləri yanında mənzil məsələsinə baxan üçlüklər yaradılmışdı. Fəhlə seksiyası və üçlüklər fəhlə mənzillərinin ümumi vəziyyətini yoxlayır, mənzillərin paylanmasında növbəlilik qaydasını təşkil edir, onların bölüşdürülməsini həyata keçirirdilər (11). Mənzil tikintisinin maliyyələşdi-rilməsində də həmkarlar ittifaqları yaxından iştirak edirdilər. Bu işdə həmkarlar ittifaqları üzvlərinin üzvlük haqları hesabına yaradılan fəhlə məişətini yaxşılaşdırmaq fondu (FMYF) mühüm rol oynamışdı. Fondun vəsaitlərinin 75%-i fəhlə mənzillərinin tikintisinə sərf edilirdi. 1923-1926-cı illərdə bu fonda toplanmış 3636 min rublun 2407 min rublu (yəni 75%-i) mənzil tikintisi üçün ayrılmışdı (12). Fəhlə qəsəbələrinin tikintisinə bütövlükdə 1923-1926-cı illərdə 19,7 mln. rubldan çox vəsait xərclənmişdi (13).

Həmkarlar ittifaqları üzvləri Kommunal təsərrüfatı kollegiyasının qərarı ilə mənzil norması üçün 1 rubl 50 qəpik əvəzinə 20 qəpik verirdilər (14). Bu dövrdə mənzil tikintisi sahəsində manelərdən biri işçi qüvvəsinin çatışmaması idi. Həmkarlar ittifaqları işsizlərin inşaatçı ixtisaslarına yiyələnməsi üçün kurslar təşkil edir, eyni zamanda kustar yolla işləyən inşaatçıları əmək artelləri təşkil etmək yolu ilə tikinti işlərinə cəlb edirdilər.

Həmkarlar ittifaqlarının təşəbbüsü ilə fəhlələr də mənzil tikintisinə maddi yardım göstərirdilər. 1926-cı ildə V.İ.Lenin adına toxuculuq fabrikində fabrik komitəsinin təşəbbüsü ilə bezin hər arşınından bir qəpik mənzil tikintisinə ayırmaq barədə qərar həyata keçirilmişdi. Bu yolla fabrikdə 204 min rubl toplanmış, həmin

pula 105 mənzil tikilmiş, eyni zamanda köhnə mənzillərdə xeyli təmir işi aparılmışdı (15). Həyata keçirilən tədbirlər nəticəsində fəhlələrin mənzillə təmin edilməsi sahəsində müəyyən irəliləyişlər əldə edilmişdi. 1929-cu ildə fəhlə qəsəbələrində 17 min nəfər neftçinin yaşadığı 3300 yeni mənzil var idi (16). Mənzil məsələsi həmkarlar ittifaqlarının plenum və iclaslarında da müzakirə edilirdi. AHİŞ-in 1928-ci ildə keçirilmiş plenumunda «Azərbaycanda mənzil inşaatının 5 illik perspektiv planı haqqında» qəbul edilmiş qərarda mənzil tikintisinə əsaslı vəsait qoyuluşunun artırılması, kooperativ və fərdi tikintinin inkişafına yardım göstərilməsi, fəhlə mənzilləri layihələrinin hazırlanmasına fəhlələrin, həmkarlar ittifaqları təşkilatlarının, əmək mühafizəsi komissiyalarının və mühəndis-texnik bölmələrinin nümayəndələrinin cəlb edilməsi, mənzil tikintisinin ucuzlaşdırılması üçün tədbirlər görülməsi və s. nəzərdə tutulmuşdu (17). Həmkarlar ittifaqları mənzillərin bölüşdürülməsi işinə də nəzarət edirdilər. AHİŞ 1928-ci il sentyabrın 16-da mənzillərin bölüşdürülməsinə nəzarət etmək məqsədilə Azərneft yanında mədən, metallurgiya, kimya sənayesi, inşaat və yerli nəqliyyat işçiləri həmkarlar ittifaqlarının və müdiriyyətin nümayəndələrindən ibarət Mərkəzi komissiya təşkil etmişdi (18). Buna baxmayaraq bu sahədə həmkarlar ittifaqlarının işində ciddi nöqsanlar var idi. Həmkarlar ittifaqlarına soxulmuş bir çox yad ünsürlər mənzilləri bölüşdürərkən saxtakarlıqlara yol verir, milli mənsubiyyətə görə mənzillərin bölüşdürülməsi hallarına rast gəlinirdi. Bu işdə azərbaycanlıların həmkarlar ittifaqlarına zəif cəlb edilməsi də özünü göstərirdi. O dövrdə mənzillərin bölgüsü zamanı həmkarlar ittifaqları üzvlərinə üstünlük verilirdi. Eyni zamanda mənzil inşaatı üçün ayrılmış vəsaitin xərclənməsi işinə də nəzarət zəif idi. 1928/29-cu ildə mənzil tikintisi üçün ayrılmış 12964 min rubldan 9004 min rubl, 1929/30-cu ildə 18255 min rubldan 9705 min rubl, 1931-ci ildə isə 21707 min rubldan 8633 min rubl xərclənmişdi (19). Mənzil tikintisinə kəskin ehtiyac olmasına baxmayaraq, göründüyü kimi bu məqsəd üçün ayrılmış vəsaitin xeyli hissəsi xərclənməmiş qalırdı. Bu, bir tərəfdən də həmkarlar təşkilatlarının öz əsl funksiyalarını yerinə yetirməkdən uzaqlaşaraq təsərrüfat məsələlərinin həllinə cəlb edilmələri ilə bağlı idi.

Azərbaycanda mənzil tikintisi işinə 1930/31-ci ildə FMYF-dan 3627285 rubl, 1932-ci ildə 2495306 rubl və ya fondun vəsaitinin 75%-i həcmində pul ayrılmışdı (20). Ancaq bu fondun vəsaiti də çox vaxt tam şəkildə xərclənmirdi. Bununla əlaqədar 1932-ci il noyabrın 26-da AHİŞ yanında FMYF üzrə komitə yaradılmışdı (21). AHİŞ-in 1934-cü il iyulun 10-da keçirilmiş iclasında da FMYF-yə vəsaitin səfərbərliyə alınması və onun xərclənməsi sahəsində yol verilmiş nöqsanlar göstərilmişdi (22). Bütün bunlara baxmayaraq mənzil inşaatı planı kəsirlə yerinə yetirilirdi. 1931-ci ildə Azərbaycanda mənzil inşaatı planına 66%, 1932-ci ildə isə 54,8% əməl edilmişdi (23).

Mənzil inşaatını sürətləndirmək məqsədilə həmkarlar ittifaqları müxtəlif təşkilatı tədbirlər həyata keçirirdilər. 1933-cü ilin dekabrında Qafqaz Neft-mədən sənayesi işçiləri həmkarlar ittifaqı Mərkəzi Komitəsinin təşəbbüsü ilə mənzil tikintisinə həsr edilmiş Ümümbakı konfransı keçirilmiş və mənzil tikintisini sürətləndirmək üçün bir sıra təkliflər irəli sürülmüşdü (24). Mənzil məsələsi həmkarlar ittifaqlarının demək olar ki, bütün iclaslarında müzakirə edilirdi. 1938-ci il oktyabrın 10-11-də keçirilmiş Azərbaycan həmkarlar ittifaqları fəallarının Ümumbakı yığıncağında həmkarlar ittifaqlarının mənzil tikintisinə laqeyd münasibəti kəskin tənqid edilmişdi. Yığıncaqda qeyd olunmuşdu ki, 1938-ci ildə neftçilər üçün mənzil tikintisinə ayrılmış 6 709 000 rubldan cəmi 2 833 000 rublu, yəni 31 %-i xərclənmişdi (25). Bu fakt həmkarlar ittifaqlarının mənzil probleminə lazımi diqqət yetirməməsinin göstəricisi idi. 1939-cu il aprelin 5-6-da Neft emalı fəhlələri həmkarlar ittifaqı Mərkəzi Komitəsinin IV plenumunda mənzil və mədəni-məişət binalarının tikintisi məsələsi müzakirə edilmişdi. Plenumda qeyd olunmuşdu ki, Azərbaycan neftayırma müəssisələri üzrə mənzil və mədəni-məişət tikintisi planı 1939-cu ilin birinci rübündə cəmi 80% yerinə yetirilmişdi. Həmkarlar təşkilatlarının mənzil tikintisinə zəif nəzarət etmələri, bu məqsəd üçün ayrılmış vəsaitin tam mənimsənilməməsi və s. nöqsanlar plenumda qeyd olunmuşdu (26). 1941-ci il mayın 29-30-da Qafqaz neft sənayesi fəhlələri həmkarlar ittifaqı Mərkəzi Komitəsinin V1 plenumunda 1941-ci il üçün mənzil və məişət obyektləri tikintisi planı və 1941-ci ilin 4 ayı ərzində həmin planın yerinə yetirilməsi məsələsi müzakirə edilmişdi. Plenumda mənzil tikintisi üçün ayrılmış vəsaitin xərclənməsinə həmkarlar ittifaqlarının nəzarətinin pis təşkil olunduğu qeyd olunmuşdu. 1941-ci ilin 4 ayı ərzində mənzil tikintisi üçün birinci yarımildə ayrılmış 21 mln. 97 min rubl vəsaitin cəmi 21,8%-i xərclənmişdi (27).

20-30-cu illərdə fəhlələrin, bütövlükdə isə əhalinin mənzillə təmin edilməsi sahəsində ciddi nöqsanlar və əyintilər mövcud idi. Həmkarlar təşkilatları da bu problemin həlli ilə ciddi şəkildə məşğul olmurdular. Bir çox hallarda həmkarlar ittifaqları mənzil problemini öz iclaslarında müzakirə etməklə vəzifələrini bitmiş hesab edirdilər. Mənzillərin bölüşdürülməsi zamanı sinfi yanaşma prinsipi əsas götürülürdü. Sovet cəmiyyətinə yad hesab edilən adamlar öz mənzillərindən çıxarılaraq onların yaşayış evləri fəhlələrə verilirdi. Həmkarlar ittifaqları aparatında başqa millətlərin nümayəndələrinin dərin kök salması mənzillərin bölüşdürülməsi zamanı milli ayrı-seçkilik hallarının baş verməsinə səbəb olurdu. Bütövlükdə isə bəhs olunan dövrdə əhalinin mənzillə təmin edilməsi problemi həll edilməmiş qalırdı.

Həmkarlar ittifaqları fəhlə və qulluqçuların istirahətinin təşkilində də yaxından iştirak edirdilər. Mədən fəhlələri həmkarlar ittifaqı 1922-ci ildə Buzovna və Mərdəkanda fəhlələr üçün istirahət evlərinin açılması üçün xeyli iş görmüşdü. Eyni zamanda həmkar-

lar ittifaqları Rusiyanın sanatoriya şəhərlərində istirahət evləri icarəyə götürürdülər. 1923-cü ildə Metalçılar həmкarlar ittifaqı öz fəhlələrinin istirahət etməsi üçün Kislovodsкda 15 otaqdan ibarət ev icarəyə götürmüşdü (28). Sanatoriya və istirahət evlərinə göndəriş alanların sayı xeyli artmışdı. 1923-1925-ci illər ərzində Mədən fəhlələri həmкarlar ittifaqı кurort və istirahət evlərinə 14059 neftçi göndərmişdi (29). Mədən fəhlələri həmкarlar ittifaqının xətti ilə 1926/27-ci ildə 1772, 1927/28-ci ildə 1864, 1928/29-cu ildə isə 1904 nəfər кurort müalicəsinə göndərilmişdilər (30). Onların içərisində fəhlələr təbii кi, çoxluq təşкil edirdilər. 1931-ci ilədəк istirahət evlərinə göndərilənlərin nisbəti 80% fəhlə və 20% qulluqçu, 1931-ci ildən isə müvafiq olaraq 90% və 10% müəyyən olunmuşdu (31). Sanatoriya və istirahət evlərinə göndərişlərin bölüşdürülməsi və istifadə edilməsi AHİŞ-in diqqət mərкəzində idi. Belə кi, AHİŞ xüsusi кomissiyalar vasitəsilə həmin məsələləri yoxlayır və nöqsanları aşкara çıxarırdı. 1933-cü ildə istirahət evlərinə göndərişlərdən istifadə edilməsi seçmə yolla yoxlanıldı və həmкarlar ittifaqlarının bir sıra nöqsanları aşкara çıxarıldı.

AHİŞ-in 1934-cü il 17 fevral tarixli qərarında göstərilirdi кi, həmкarlar ittifaqlarının nəzarətsizliyi üzündən 1933-cü ildə istirahət evlərinə göndərişlərin 13%-i istifadəsiz qalmış və fabriк-zavod yerli кomitələri tərəfindən fəhlə göndərişləri ilə qulluqçuların istirahət evlərinə göndərilməsi halları baş vermişdi (32). AHİŞ-in 1935-ci il 22 avqust tarixli qərarında da müvafiq ilin birinci yarısında sanatoriya və istirahət evlərinə göndərişlərin кütləvi istifadəsiz qalması halları aşкara çıxarılmışdı (33). 1937-ci ildə həmкarlar ittifaqlarının təqsiri üzündən təкcə ÜİHİMŞ-in istirahət evlərinə 1000 ədəd göndəriş istifadəsiz qalmışdı.

Göndərişlər verilərкən əməк qabaqcılları və zərbəçilərə üstünlüк verilir, onlar üçün xüsusi şərait yaradılırdı. AHİŞ-in 1930-cu il 30 yanvar tarixli qərarına əsasən кeçici Qırmızı Əməк Bayrağı almış qabaqcıl müəssisə fəhlələri üçün sanatoriya və istirahət evlərində xüsusi çarpayılar ayrılırdı (34). Həmin ilin sonunda кeçirilən zərbəçi günündə xüsusilə fərqlənmiş 20 nəfər sanatoriyaya, 100 nəfər isə istirahət evlərinə göndərişlərlə müкafatlandırılmışdılar (35).

Staxanovçular üçün istirahət evləri və sanatoriyalarda xüsusi təşкil edilmiş кorpus və palatalar ayrılmışdı. 1936-cı ildə istirahət evlərinə göndərişlərin 25%-i staxanovçular üçün ayrılmışdı (36). Bu dövrdə bir günlüк istirahət evləri və mədəni bazalar fəhlələrin istirahət günlərinin кeçirilməsində əhəmiyyətli rol oynamışlar. 1934-1937-ci illərdə Mərdəкanda (10500 nəfərə xidmət etməк imкanına maliк) və Bayıl rayonunda (4500 nəfərə xidmət edə bilən) bir günlüк istirahət evləri açılmışdı (37). Bir faкta nəzər yetirməк lazımdır кi, həmкarlar ittifaqlarının fəhlələrin sanatoriya və istirahət evlərinə göndərilməsi işində də milli ayrı seçкiliк özünü göstərirdi. Orconiкidze (Suraxanı) rayonunun mədən кomitələrinin başqa şəhərlərdə istirahətə göndərdiкləri fəhlələrin siyahısına nəzər salmaq кifayətdir. Qazmaçı Menzeleyev Borcomiyə, qazmaçı

usta Sarkisov Alukku kurortuna, çilingər Kazakov Yesentukiyə, tokar Ayzattulov Borcomiyə, tokar Devin isə Kislovodskiyə istirahətə göndərilmişdilər (38). Bu cür hallara həmkarlar ittifaqlarının fəaliyyətində çox rast gəlinir. Bu, bir tərəfdən həmkarlar ittifaqlarının fəaliyyətində olan ciddi çatışmazlıqlarla, xüsusilə həmkarlar aparatında başqa millətlərin nümayəndələrinin üstünlük təşkil etməsi ilə bağlı idisə, digər tərəfdən isə azərbaycanlıların istirahət evləri və sanatoriyalarda dincəlməyə az meylli olması ilə də əlaqədar idi. Azərbaycanlı fəhlələr öz istirahətlərini ailələri ilə birlikdə keçirməyə daha çox üstünlük verirdilər.

20-30-cu illərdə əhalinin maddi məişət şəraitinin yaxşılaşdırılması sahəsində əldə edilmiş nailiyyətləri inkar etmək olmaz. Bu məsələdə sinfi yanaşma metodunun mövcud olmasına baxmayaraq Sovet dövləti fəhlələrin maddi məişət şəraitinin yaxşılaşdırılması sahəsində əhəmiyyətli tədbirlər görürdü. Fəhlələrin əmək haqqının artırılması, işsizlərin faydalı əməyə cəlb edilməsi, mənzil və digər ictimai iaşə obyektlərinin tikintisi, fəhlələrin sanatoriya və istirahət evlərinə göndərilməsinin təşkili və s. sahələrdə həyata keçirilən tədbirlər əhalinin maddi məişət şəraitinin yüksəldilməsində səmərəli rol oynamışdı. Bütün bu tədbirlərin həyata keçirilməsində həmkarlar ittifaqları da fəal iştirak etmişdir. Ancaq onların fəaliyyətində nöqsanların və əyintilərin olduğunu da inkar etmək olmaz. Ən başlıcası isə həmkarlar təşkilatları bəhs olunan illərdə bu işlərdən bir növ uzaqlaşdırılmışdılar. Onlar daha çox təsərrüfat məsələlərinin həllinə cəlb edilmişdilər. Halbuki, fəhlələrin və bütövlükdə əhalinin maddi məişət şəraitinin yaxşılaşdırılmasına qayğı göstərilməsi onların birbaşa vəzifəsi idi. Ancaq həmkarlar ittifaqları Kommunist partiyasının irəli sürdüyü göstərişlər əsasında fəaliyyət göstərdiklərinə görə öz əsas funksiyalarını yerinə yetirməkdən uzaqlaşmışdılar. Həmkarlar ittifaqlarının özlərinin fəaliyyətində mövcud olan çatışmazlıqlar da əmək haqqının ödənilməsində bərabərçiliyin, mənzillərin bölüşdürülməsi, sanatoriya və istirahət evlərinə fəhlələrin göndərilməsi sahəsindəki milli ayrıseçkilik hallarının baş verməsinə şərait yaradırdı.

## ƏDƏBİYYAT


1. Четверть века борьбы под большевистским знаменем. Юбилейный сборник, посвященный 25-летию союза рабочих нефтяной промышленности АССР. Баку, 1966, с. 52.
2. Yenə orada.
3. Труд,1923, 1 октября.
4. Yenə orada, 1922, 23 may.
5. Azərbaycanda həmkarlar hərəkatı. 1926-1927. Həmkarlar ittifaqlarının VI qurultayına AHİŞ-in haqq-hesabı. Bakı, 1928, s.3-4; Azərbaycan Respublikası Dövlət Arxivi (ARDA), f.1114, s.1, iş 2624, v.2.
6. Рабочий класс в управлении государством (1926-1937гг.), М., 1968, с.44.
7. Социалистическое строительство АССР. Стат.сб. Баку, 1935, с. 328.
8. Azərbaycan tarixi, 7 silddə, VI c.Bakı, 2000, s.304
9. Yenə orada, s. 395.

10. Azərbaycan arxivi, 1985, №1, s.30
11. К.А.Гусейнов, М.И.Найдель. Очерки истории профдвижения в Азербайджане. Баку,1966, с.141.
12. Отчет АСПС к VII съезду профсоюзов (1928г.-1/1-1932г.). Баку,1932, с.29.
13. ARDA, f.1393, s.1, iş 1394, v.12.
14. Труд, 1922, 28 апреля.
15. Бакинский рабочий, 1927, 30 сентября.
16. Kommunist, 1929, 6 ноября.
17. AHİŞ 2-ci plenum sessiyasının qərarları. 25-28 iyun 1928-ci il, Вакı, 1928, s.33-35.
18. ARDA, f.1114, s.1, iş 7343, v.222.
19. Отчет АСПС к VII съезду профсоюзов, с.71.
20. Профсоюзы Закавказья (1930-1933).Тифлис, 1934, с.124.
21. ARDA, f.1114, s.1, iş 114, v.150.
22. Yenə orada, iş 7676, v.3.
23. Профсоюзы Закавказья (1930-1933), с.121.
24. Вышка, 1933, 10 декабря.
25. Yenə orada, 1938, 14 октября.
26. Бакинский рабочий, 1939, 8 апреля.
27. Вышка, 1941, 29 мая, 1 июня.
28. Труд, 1923, 4 iyun.
29. Азербайджанское нефтяное хозяйство, 1925, №10(46), с.104-105.
30. Mədənçilər quruluşu, 1930, №7, s. 34-35.
31. Əmək məsələləri. AHİŞ-in VII qurultayına Azərbaycan Xalq Əmək Komissarlığının məruzəsi. Вакı,1932, s.79.
32. ARDA, f.1114, s.1, iş 335, v.2.
33. Yenə orada, iş 164, v.4.
34. Yenə orada, iş 129, v.25.
35. Yenə orada, f.1393, s.1, iş 1453, v.4.
36. Бакинский рабочий, 1936, 3 апреля.
37. Отчет ЦК профсоюза рабочих нефтепромыслов Кавказа (1934-1937гг.), М., 1937, с.29.
38. Вышка, 1936, 10 февраля.

## РОЛЬ ПРОФСОЮЗОВ АЗЕРБАЙДЖАНА В РЕШЕНИИ СОЦИАЛЬНЫХ ПРОБЛЕМ (20-30-е годы XX века)

**В.С.ГАСАНОВ**

### АННОТАЦИЯ

Одним из основных задач профсоюзов в социалистическом обществе было поднятие жизненного уровня трудящихся и решение их социальных проблем.

Проводимые в 20-30-е годы мероприятия по повышении заработной платы, сокращении рабочего дня, улучшении жилищного условия, организации санаторно-курортного отдыха помогли улучшить условия жизни рабочих. Профсоюзы Азербайджана активно участвовали в этих мероприятиях. В статье нашли отражения формы и методы работы профсоюзов в решении социальных проблем.